Filkret® 200

TƏMİR MONTAJ QARIŞIĞI

Məhsul haqqında
Sement əsaslı, birkomponentli, polimerləşdirilmiş, yüksək stabilliyə malik quru betonun səthinin təmiri üçün qarışıqdır.
AZS 039 -2000 (TS 11140 -1993) "Yapışdırıcılar- sement əsaslı (hidravlik bağlayıcılı) kafel, keramika və döşəmə plitələri üçün" standartın tələblərinə uyğundur.

İstifadə sahələri
Bu təmir qarışığından:
• nahamarlıqları və qüsurları olan beton səthlərin təmirində;
• quru beton səthlərin suvanmasında;
• divar və tavanların suvanması və təmirində;
• keramika və kafel örtüyü döşənməzdən əvvəl hamar səthin əldə edilməsində istifadə olunur.

Üstünlükləri
• yalnız su ilə qarışdırılır;
• asan şəkildə tətbiq edilir;
• səthlərin düzgün bitişməsini təmin edir;
• beton və suvaqlı səthlərdə yüksək yapışqanlılıq qabiliyyəti yaradr;
• geniş səthlərə asan şəkildə tətbiq edilir;
• çatlar əmələ gəlmir;
• yüksək tiksotropik xüsusiyyətinə malikdir.

İstifadə qaydaları
Səthin hazırlanması: Təmir ediləcək sement əsaslı səthlər möhkəm, tozsuz və təmiz olmalı, səth yapışma müqavimətini zəiflədən hər növ yağ, pas və parafin qalıqlarından, dəmir və taxta parçalarından tamamilə təmizlənməli və 4 sm-lik dərinliyə qədər olan boşluqlar **MATON 200** təmir qarışığı ilə və ya digər oxşar məhsul ilə doldurulmalıdır. Qarışığın tətbiq ediləcəyi səthin su ilə doyması təmin edilməli, lakin səthdə sərbəst su qalmamalıdır.

Qarışığın hazırlanması. Ölçü cihazı vasitəsi ilə müvafiq miqdarda suyu təmiz vannaya boşaldın və üzərinə yavaş-yavaş Filkret 200 təmir qarışığını əlavə edin. Dəqiqədə 400-600 dövriyyəli qarışdırıcı cihazla homogen bir qarışıq əldə edilənə qədər 4 dəqiqə qarışdırın. Təqribən 4 dəqiqə gözlədikdən sonra yenidən 30 saniyə qarışdırın və məhsulu istifadəyə hazır vəziyyətə gətirin.

Qarışıq üçün tələb olunan vasitələrin miqdarı

Filkret 200	1 kq məhsul üçün	20 kq-lıq kisə üçün
Qarışdırılma üçün nəzərdə tutulmuş su miqdarı	0.225 litr	4,5 litr
İstifadəyə hazır məhlulun sıxlığı	1,9 kq / litr	

Tətbiqi. Hazırlanan qarışığı mala vasitəsilə 1–30 mm qalınlıqda olmaqla səthə çəkin. Qarışıq suyu çəkənə qədər gözləyin, səthə çəkilən qarışığın üzərinə suvaq fırçası ilə su səpin. Sonra isə polad və ya taxta malanın köməyi ilə səthi istənilən şəkildə düzəldin. Filkret 200 məhsulu açıq havada açıq geniş səthlərdə, xüsusilə isti, quru və küləkli mühitdə tətbiq edilərsə, 24-48 saat ərzində isladılmış parça, brezent və ya digər kür məhlulu ilə qorunaraq buxarlanmanın qarşısı alınmalıdır.

Tövsiyələr. Təmir üçün nəzərdə tutulmuş Filkret 200 məhsulu +20^0 C temperaturda 30 dəqiqə ərzində tətbiq olunmalıdır. Bu müddət +32^0 C temperatur üçün 20 dəqiqədir. Xarici səthdə işlərin aparılması zamanı 24 saat ərzində səth günəşdən, küləkdən, yağışdan və ya donmadan qorunmalıdır. Sement əsaslı sistemlərin işləmə və reaksiya surəti ətraf mühitin və istiliyin, həmçinin havadakı rütubətin təsirinə məruz qala bilər. Aşağı temperaturda hidrotasiya ləngiyir və nəticədə məhsulun istifadə müddəti artır. Yüksək hərarət isə hidrotasiyanı sürətləndirir, nəticədə yuxarıda qeyd olunan müddət bununla əlaqədar azalır. Qarışığın tam bərkiməsi üçün ətraf mühitin temperaturu nəzərdə tutulan minimum həddən az olmamalıdır. Qarışıq tətbiq edildikdən sonra istifadə olunan bütün alət və avadanlıqlar su ilə təmizlənməlidir.

Texniki göstəricilər

Rəngi	boz
İstifadə temperaturu	+5^0 C – +32^0 C
Istifadə müddəti: • *+20^{0}C temperaturda*	30 dəqiqə
Sıxılmada möhkəmlilik həddi: • *28 gündən sonra*	>10 N/mm^2
Qopma müqaviməti: • *28 gündən sonra*	>1,0 N/mm^2
Tətbiq ediləcək qalınlıq: • *minimum* • *maksimum*	5 mm 30 mm
Tam bərkimə müddəti	28 gündən sonra
Qablaşdırma	2 və ya 3 qatı kraft kağızı və 1 qatı polietilendən ibarət 10 və 20 kq-lıq kisələrdə

Sərfiyyat
1 mm qalınlıq üçün 1,55 kq/m^2 qarışıq sərf olunur.

Saxlama müddəti və qaydası
Açılmamış və orijinal kisələrdə, sərin və quru yerdə 12 ay saxlanıla bilər. Qısa müddətli saxlama zamanı üç kisə bir-birinin üzərinə qoyula bilər. Uzun müddətli saxlama zamanı kisələr bir-birinin üzərinə qoyula bilməz. Ağzı açılmış kisələrdəki məhsul müvafiq saxlanma şəraitində bir həftə ərzində istifadə edilməlidir.

Xəbərdarlıqlar
• Təmir qarışığı sement əsaslı olduğundan istifadə zamanı işin və işçinin təhlükəsizliyi

qaydalarına riayət olunmaqla, müvafiq iş paltarı, qoruyucu əlcək, eynək və maskadan istifadə edin;
• məhsulun allergiya və qaşınma kimi təsirlərini nəzərə alaraq, komponentlərin dəriyə və gözə təmas etməməsinə diqqət edin, dəriyə və gözə təmas olarsa, dərhal çoxlu miqdarda su və sabunla yuyun;
• qarışıq tətbiq edilən sahəyə ərzaq qoymayın;
• uşaqların əli çatmayan yerlərdə saxlayın;
• yuxarıdakı göstəricilər +23^{0}C±2^{0}C temperatur və 50%±5% rütubətli şəraitdə aparılan laboratoriya sınaqları nəticəsində əldə olunmuşdur. Şəraitdən asılı olaraq bu göstəricilər dəyişə bilər.

Zəmanət və texniki dəstək
• texniki göstəricilərdə qeyd edilmiş məlumatlar elmi və təcrübi biliklərə əsaslanır;
• "Mətanət A" şirkəti məhsulun müvafiq texniki şərt və dövlət standartlarına uyğunluğuna zəmanət verir;
• şirkətin mütəxəssislərinin rəhbərliyi altında görülən işlər istisna olmaqla, digər istifadəçilər tərəfindən təlimatdan kənar istifadə zamanı yarana biləcək problemlərə görə "Mətanət A" şirkəti məsuliyyət daşımır;
• şirkət elmi-texniki inkişafla bağlı məhsulda dəyişiklik etmə hüququnu özündə saxlayır;
• texniki dəstək və ya daha geniş məlumat almaq üçün "Mətanət A" şirkətinə müraciət edin!

Filkret® 300

DİVAR BOYASININ ALT SƏTHİNİN BƏRPASI ÜÇÜN PLOMB QARIŞIĞI

Məhsul haqqında
Sement əsaslı, birkomponentli, polimerləşdirilmiş, yüksək stabilliyə malik səthin bərpası və plomb qarışığıdır.
AZS 039 -2000 (TS 11140 -1993) "Yapışdırıcılar- sement əsaslı (hidravlik bağlayıcılı) kafel, keramika və döşəmə plitələri üçün" standartın tələblərinə uyğundur.

İstifadə sahələri
Bu təmir qarışığından:
• quru beton səthləri boyamadan əvvəl hamar səthin hazırlanmasında;
• divar və tavanların suvanması və təmiri zamanı beton səthdə olan nahamarlıqların hamarlaşdırılmasında istifadə olunur.

Üstünlükləri
• yalnız su ilə qarışdırılır, asan şəkildə tətbiq edilir;
• məcun qatılığındadır;
• səthlərin düzgün bitişməsini təmin edir;
• rəngi ağ olduğundan asan boyana bilir;
• beton və suvaqlı səthlərdə yüksək yapışqanlılıq qabiliyyəti yaradır;
• geniş səthlərə asan şəkildə tətbiq edilir;
• çatlar əmələ gətirmir.

İstifadə qaydaları
Səthin hazırlanması. Tikililərin təmir ediləcək sement əsaslı səthləri möhkəm, tozsuz və təmiz olmalı, səth yapışma müqavimətini zəiflədən hər növ yağ, pas və parafin qalıqlarından, dəmir və taxta parçalarından tamamilə təmizlənməlidir. Qarışığın tətbiq ediləcəyi səthlərin su ilə doyması təmin edilməli, lakin səthdə sərbəst su qalmamalıdır.

Qarışığın hazırlanması. Ölçü cihazı vasitəsi ilə müvafiq miqdarda suyu təmiz vannaya boşaldın və üzərinə yavaş-yavaş Filkret 300 təmir qarışığı əlavə edin. Dəqiqədə 400-600 dövriyyəli qarışdırıcı cihazla homogen bir qarışıq əldə edilənə qədər 4 dəqiqə qarışdırın. Təqribən 4 dəqiqə gözlədikdən sonra yenidən 30 saniyə qarışdırın və məhsulu istifadəyə hazır vəziyyətə gətirin.

Qarışıq üçün tələb olunan vasitələrin miqdarı

Filkret 300	1 kq məhsul üçün	20 kq-lıq kisə üçün
Qarışdırılma üçün nəzərdə tutulmuş su miqdarı	0,275 litr	5,5 litr
İstifadəyə hazır məhlulun sıxlığı	1,5 kq / litr	